Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

Avropa İttifaqının Azərbaycanın
Lənkəran-Astara İqtisadi
Rayonuna Dəstəyi

## “EU4LANKARAN” LAYİHƏ XƏBƏRİ

İyun 2024 | 6-cı hissə

# LERİKDƏ KARTOF VƏ ALMA İSTEHSALININ ARTIRILMASI: “EU4LANKARAN” LAYİHƏSİNİN ƏHƏMİYYƏTLİ ROLU



*Alma, Lerik*

Azərbaycanın Lənkəran-Astara iqtisadi rayonunun Lerik rayonu özünəməxsus gözəlliyi və əhalisinin uzunömürlülüyü ilə tanınır. Rayon hazırda kənd təsərrüfatı sektorunda, xüsusən də kartof və alma istehsalında perspektivli inkişaf dövründən keçir. Yerli iqtisadiyyat üçün vacib əhəmiyyət kəsb edən bu məhsullar hazırda istehsalın keyfiyyətinin və bazarda rəqabət qabiliyyətinin təkmilləşdirilməsinə yönəlmiş əsaslı səylərin mərkəzindədir.



*Kartof, Lerik*

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən “EU4Lankaran” layihəsi çərçivəsində hazırlanmış “Lerik rayonunda alma və kartof dəyər zəncirlərinin təhlili” hesabatında dəyər zəncirlərinin cari vəziyyəti öz əksini tapır və alt sektorların üzləşdiyi problemlərin həlli üçün mümkün həll yollarına toxunulur. Layihənin məqsədi yeni elmi təcrübələri əhatə edən məqsədyönlü dəstək və strateji müdaxilələr, fermerlərin maarifləndirilməsi, yüksək məhsuldar sortların tətbiqi, düzgün qulluq, brendləşdirmə və məhsulların marketinqi vasitəsilə yerli fermerlərin məhsul və gəlirlərini artırmaqdır.

# “EU4LANKARAN” LAYİHƏ XƏBƏRİ

Lerikin iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir, alma və kartof isə rayonda istehsal edilən ən əhəmiyyətli məhsuldur. Lerikdə alma istehsalı köhnə əkinçilik üsulları və qeyri-kafi infrastruktur da daxil olmaqla böyük maneələrlə üzləşir. Lerik regionun alma bağlarının 53%-nə sahib olsa da, kiçik, dağınıq təsərrüfatlardan və yanlış suvarma sistemlərindən əldə edilən aşağı məhsuldarlıq səbəbindən, ümumi alma istehsalının yalnız 26%-ni təşkil edir. Ənənəvi becərmə üsullarının geniş tətbiqi, düzgün aqrotexniki qulluq haqqında məlumatın olmaması və keyfiyyətli resurslara məhdud çıxış məhsuldarlığı daha da azaldır. Müasir anbarların qeyri-kafi olması həm də məhsul yığımından sonra əhəmiyyətli itkilərlə nəticələnir, almaların keyfiyyətini, satış qabiliyyətini aşağı salır, bununla da fermerlərin daha geniş bazarlara çıxışını məhdudlaşdırır və onların gəlirlərinə təsir göstərir. Bu məsələlər məhsuldarlığı artırmaq, keyfiyyəti təkmilləşdirmək və Lerikin alma istehsalçılarının bazara çıxışını genişləndirmək üçün müasir kənd təsərrüfatı təcrübələrinin və infrastruktura investisiyaların təcili lazım olduğunu vurğulayır.



*Kartof sahəsi*

Lerik kartof istehsalında çətinliklərlə üzləşir. Rayonun dağlıq relyefi genişmiqyaslı texnikalardan istifadəni çətinləşdirir və bu da, öz növbəsində, məhsuldarlığın qeyri-sabit olmasına gətirib çıxarır. Baxmayaraq ki, Lənkəran-Astara regionunda becərilən kartof sahəsinin 14,9 faizi Lerikin payına düşür, burada kartofun cəmi 8,1 faizi istehsal olunur. Bu, istehsaldakı səmərəsizliyin göstəricisdir. Alma istehsalındakı kimi, kartof təsərrüfatlarının kiçik, parçalanmış olması miqyaslılığı və gəlirliliyi azaldır, çünki fermerlərin keyfiyyətli toxum və gübrələrə çıxışı məhduddur. Yüksək nəqliyyat xərcləri və səmərəli təchizat zənciri şəbəkələrinin olmaması kartofçuluğun ümumi iqtisadi səmərəliliyinə təsir edərək bazara çıxışı daha da məhdudlaşdırır. Bu problemlərin infrastruktura investisiyalar və təkmilləşdirilmiş bazar əlaqələri vasitəsilə həlli Lerikin kartof istehsalçılarının məhsuldarlığını və gəlir potensialını artırmaq üçün əsasdır. Bu çətinlikləri aradan qaldıraraq Lerikin kənd təsərrüfatı məhsullarını əhəmiyyətli dərəcədə artırmaq, regionun iqtisadiyyatına daha effektiv töhfə vermək və kartof məhsullarının bazara daha yaxşı çıxışını təmin etmək mümkündür.



*Alma bağı*



*Əl ilə kartof yığımı*

# “EU4LANKARAN” LAYİHƏ XƏBƏRİ

Lerikdə uğurlu fermerlərdən biri də alma və tərəvəz yetişdirən Cavid Həşimlidir. Gəlin onun hekayəsi ilə daha yaxından tanış olaq.

*Lerikli gənc fermer Cavid Həşimli 0,5 hektarlıq bağda alma və şəxsi istifadə üçün kartof, pomidor və digər tərəvəz məhsulları yetişdirir. Bundan əlavə, heyvandarlığa investisiya edir. Təsərrüfatını kifayət qədər su ilə təmin etmək üçün Cavid 15 kub ton su saxlayan daş konteyner düzəldib. Su anbara dağ bulaqlarından və artezian quyularından yığılır. Cavidin meyvə bağına və kartof sahəsinə çəkilmiş bir neçə şlanqdan ibarət sadə suvarma sistemi alma ağaclarını suvarmağa kifayət edir.*



**Alma tingləri**

Bundan əlavə, layihə Lerikdəki alma və kartof istehsalçı qruplarına BMTİP layihəsi vasitəsilə maşın və avadanlıqların alınması üçün tenderlərə müraciət etmələrinə köməklik göstərmişdir. Bu təşəbbüsün məqsədi bölgədə kənd təsərrüfatı məhsuldarlığını və davamlılığı artırmaq, yerli fermerləri məhsuldarlığı və keyfiyyəti artırmaq üçün lazım olan əsas alət və resurslarla təmin etməkdir.

Davam edən təşəbbüslər çərçivəsində layihənin məqsədi Lerikin kənd təsərrüfatı məhsullarının brendinqini artırmaqdır. “Lerik alması” və “Lerik kartofu” rayon məhsullarının fərqli xüsusiyyətlərindən istifadə edərək yüksək keyfiyyətli, ekoloji cəhətdən təmiz premium məhsul kimi tanıdılacaq.

Bu təhlildən sonra layihə rayonda ilk intensiv nümayiş alma bağları yaradaraq yerli fermerlərin məhsuldarlığını və gəlirlərini artırmaq üçün addımlar atdı. Seçim yolu ilə yeddi aparıcı yerli fermer beş tanınmış beynəlxalq kommersiya sortlarından (“Starkrimson”, “Pink Lady”, “Golden Delicious”, “Qala” və “Granny Smith”) 2010 alma tingi ilə təmin edilmişdir. Səkkiz fermerin sahəsində nümayiş kartof sahələri yaradılıb. Bu fermerlər dörd yerli sort (“Sevinc”, “Çənlibel”, “Vaqif”, “Əmiri”) və dörd xarici sort (“Colombo”, “Orkestr”, “Sorayya”, “Bernina”) olmaqla ümumilikdə 3155 kq kartof toxumu əldə ediblər.

Layihə Lerikdə meyvə bağları və kartof sahələrinin yaradılmasından əlavə, kollektiv sövdələşmə fəaliyyətini gücləndirmək və bazara çıxışı təkmilləşdirmək üçün Alma və Kartof İstehsalçıları Qruplarının yaradılmasına təşəbbüs göstərmişdir. Fermerlər arasında əməkdaşlığı təşviq edərək, layihə miqyas iqtisadiyyatı yaratmaq, istehsal xərclərini azaltmaq və Lerikin kənd təsərrüfatı məhsullarının həm daxili, həm də beynəlxalq bazarlarda rəqabət qabiliyyətini artırmaq məqsədi daşıyır.



**Kartof əkini ilə məşğul olan fermerlərlə görüş**

“Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara iqtisadi rayonuna dəstəyi” layihəsi ilə bağlı yeniliklər üçün bizi izləməyə davam edin.

*Bu material Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Məzmun üçün yalnız layihə məsuliyyət daşıyır və Avropa İttifaqının fikirlərini əks etdirmir. Layihə “WeGlobal”ın rəhbərlik etdiyi konsorsium tərəfindən həyata keçirilir.*